# Balalara Töhfələr



Tofiq Mirzə

## QIZ ŞƏKİL ÇƏKİR

Nərgiz şəkil çəkməyi,
Təzə-təzə öyrənir.
Bu balaca rəssamı
Evdə hamı bəyənir.
Bu gün bir budaq çəkdi.
Üstündə yarpaq çəkdi.
Yarpağın üstündə at.
Baxdı,
Özü qaldı mat.
Belə zarafat olmaz,-
Yarpaq üstdə at olmaz
Nərgiz tez atı pozdu,
Çəkdi xallı kəpənək,
Bax, bu oldu çox qəşəng!

Rafiq Yusifoğlu

## DAYƏ PİŞİK

Anam ip bağlamışdı
Bacımın beşiyinə.
Ağlasa, yelləməyi
Tapşırmışdı o mənə.
Bacım yuxuya getcək
Durub mətbəxə keçdim.
Susamışdım, anamın
Qoyduğu sudan içdim.
Qayıdanda gördüm ki,
Zolaq-zolaq pişiyim
Tutub ipin ucundan
Yırğalayır beşiyi.

